AMEA Nəsimi adına Dilçilik İnstitutu,
Dilçilik araşdırmaları, 2026, №2 *ISSN: 2664-5432*
Səhifə:191-195
https://doi.org/10.59849/2664-5432.2026.2.191

Məhin QULİYEVA*

ALMAS İLDIRIMIN POEZİYASINDA İŞLƏNƏN FRAZEOLOJİ VAHİDLƏR HAQQINDA

XÜLASƏ

Məqalədə mühacir şair Almas İldırımın poeziyasında işlənən frazeologizmlərdən bəhs olunur. Burada, əsasən ismi frazeologizm əsas rol oynayır.

Məqalədə frazeologiya haqqında qısa məlumat da verilir və Azərbaycan dilçiliyində bu sahədə məşğul olan bir neçə frazeoloq dilçilərin adları xatırlanır. İsmi frazeoloji vahidlər dilçiliyimizdə feili frazeologizmlərə nisbətən tədqiqata cəlb olunmayıb. Buna görə də burada biz ismi frazeologizmlər haqqında qısa məlumat vermişik.

Açar sözlər: Azərbaycan dili, Almas İldırım, şeir, frazeologizm, substantiv frazeoloji vahidlər.

Məlumdur ki, dilin frazeoloji sistemini frazeologiya elmi öyrənir. Frazeologiya keçən əsrin ortalarına kimi leksikologiyanın tərkibində öyrənilirdi. Lakin akademik V.V.Vinoqradov frazeologiyanın leksikologiyadan ayrılaraq dilçilikdə müstəqil bir şöbə kimi formalaşdığını irəli sürmüşdü. Deməli, dilçilikdə frazeologiyanın ayrıca bir sahə kimi tədqiq olunması V.V.Vinoqradovun adı ilə elmə daxil oldu.

Bu konsepsiya keçən əsrin 50-ci illərindən sonra diqqəti daha çox cəlb etdi. Bundan sonra frazeologiya elminin tədqiqində xaricdə böyük bir frazeoloq ordusu yarandı. Bununla yanaşı, türkologiyada, o cümlədən Azərbaycan dilçiliyində də bu sahəyə maraq artdı.

Doğrudur, bəzi ali məktəb dərsliklərində frazeologiyaya aid qısa məlumatlar, nümunələr göstərilməsinə baxmayaraq, Azərbaycan dilçiliyində ilk dəfə frazeologiya elminə aid nisbətən geniş məlumatı M.Hüseynzadə vermişdir. Müəllif 1954-cü ildə çap olunmuş "Müasir Azərbaycan dili" kitabında frazeologiya haqqında ayrıca başlıqda məlumat vermişdir.

M. Hüseynzadədən sonra S.Cəfərov, A.Qurbanov, H.həsənov, N.Rəhimzadə, H.Bayramov frazeologiya haqqında dəyərli məlumatlar verir. Bunların içərisində H.Bayramovun monoqrafiyası xüsusi bir yer tutur. Bütün bunlarla bərabər, Azərbaycan dilçiliyində frazeologiya elminə aid bir çox dissertasiyalar, monoqrafiyalar və yüzlərlə müxtəlif səpkili məqalə yazılmışdır. Bu proses iki halda öz əksini tapır. Birinci halda, frazeologiya haqqında ümumi nəzəri tədqiqat işləri, ikinci halda isə müxtəlif əsərlərdə frazeologizmlərin işlədilməsi halları. Məsələn, frazeologiya haqqında ümumi məlumatlar və bir-biri ilə fərqlənən elmi fikirlər irəli

* Bakı Dövlət Universiteti, Mühacirət ədəbiyyatı və tərcümə ETZ, elmi işçi.

sürülmüşdür. Buraya M.Hüseynzadənin, S.Cəfərovun, A.Qurbanovun, H.Həsənovun, N.Rəhimzadənin, H.Bayramovun, F.Salayevanın adlarını çəkmək olar. İkinci halda, Azərbaycanın bəzi yazıçılarının əsərlərində işlənən frazeologizmlər tədqiqata cəlb edilir. Bu sahəyə S.Murtuzayevin, M.Adilovun, S.Mehdiyevanın, M.Məmmədovun, Q.Kazımovun, R.Məhərrəmovanın, N.Seyidəliyevin, K.Əliyevin, Z.Əhmədovun, T. Əsgərovanın və başqalarının adlarını çəkmək olar.

Məqalədə mühacir Azərbaycan şairi Almas İldırımın poeziyasında işlənən frazeologizmlər haqqında qısa məlumat verməyi qarşımıza məqsəd qoymuşuq.

A.İldırım mühacir şair kimi tanınır. O, amansız təqiblərə məruz qalmış, işlədiyi vəzifələrdən xaric olunmuşdur. Şair ömrünün çoxunu, demək olar ki, mühacir kimi Dağıstanda, Türkmənistanda, İranda və Türkiyədə yaşamış və buna görə də şeirlərinin əksəriyyəti həmin dövrlərdə yazılmışdır.

Onun poeziyası çox zəngindir. Bu zənginlik sinonimlərdə, antonimlərdə, idiomalarda, məcazlarda və s. - də özünü göstərir. Şairin poeziyası, demək olar ki, frazeologizmlərlə daha zəngindir.

Ənənəvi olaraq, frazeologizmlər iki qrupa ayrılır: 1) substantiv (ismi) frazeologizmlər; 2) Feili frazeologizmlər.

İsmi frazeoloji vahidlər müxtəlif mənalara malik olur. Çoxu iki sözün müxtəlif struktur əlaqələr əsasında birləşərək yaranır. Həmin vahidlər isim+isim, sifət+isim, isim+sifət modeli əsasında olur və onların bir neçə tipi var. Substantiv frazeologizmlər Azərbaycan dilçiliyində az tədqiqat olunduğu üçün məqalədə əsas fikir bu sahəyə yönəldilmişdir.

Məhz Almas İldırımın poeziyasında bunların şahidi oluruq. Məsələn, sifətlə adlıq halında olan isimlə birlikdə işlənən sözlər. Həmin ifadələrə aid aşağıdakı nümunələri göstərə bilərik:

ağ gün, ağır il, ağır addım, yanıqlı səs, köhnə dünya, böyük Allah, qoca Şərq, dəli Xəzər, qoca türk və s.

Almas İldırım həyatda xoşbəxt həyat, şən həyat görməyib və başqalarına sual formasında müraciət edərək "ağ gün" ifadəsini poetik tərzdə işlətmişdir. Bu zaman mənanı daha qüvvətli edilir.

Fəqət indi harda o dərin-dərin
Həzin nalələrin, iniltilərin?
Söylə, ağ günlərə çıxdınmı bir gün?
Zülmün heykəlini yıxdinmi bu gün?... [İldırım:2004, s.14].

Həmçinin pis, iztirablı, məşəqqətli, cansıxıcı, faciəli günlər keçirmiş insanların ağır həyatını dağlara müraciətlə "ağır günlər" və "yanıqlı səs" ifadələrini işlədir:

Söylə, gəliyormu sənə torpaqda
Viran Şərq elinin yanıqlı səsi ... [İldırım:2004, s.16].

***

Sinəndə kəsərlər ellər qurbanı,

Keçirərkən ağır illər, a dağlar!... [İldırım:2004, s.17].

Hətta yeriməyə belə həvəsi, istəyi olmadıqda "ağır addımlar" ifadəsinə müraciət edir:

Yalnız bircə köhnə qala düşüncəyə dalmadı,
Yorğun, ağır addımlarla bizdən uzaq qalmadı [İldırım:2004, s.85]/

Şair yaxşı, firavan, şən həyat sürüb, bolluq içində yaşamaq ümidlərini Allaha bağlayanlara müraciətlə "böyük Allah" frazemini işlətmişdir:

Bir şey ummayıb bu dilsiz dərdə,
Ümid bağlamışsan böyük Allaha... [İldırım:2004, s.87].

Almas İldırım "qoca Şərq", "gənc Şərq" poetik ifadələrini işlətməklə "qoca" qədimliyi, "gənc" deməklə isə yeniliyi, müasirliyi nəzərdə tutur və türkün yeni Şərqdə də olduğu kimi köhnə Şərqdə də yeni bir günün – azadlığın olacağına işarədir:

Özün bir nur ikən "qanlı ulduzun"
Zülmət olduğunu qandın dedilər...
Türk üçün yaranmış bu qoca Şərqə,
Yeni bir gün doğar sandın, dedilər [İldırım:2004, s.94].

***

Sən gənc Şərqin günəşisən, işıqları qarşımız
Bitirdiyin on yaşına "Zəhmət"imizdən salam [İldırım:2004, s.95].

Şair "qoca türk" dedikdə isə türk dünyasının qədimliyinə işarə edir:

....Yada qalmış, dilər eldən aman hey...
Qoca Türkün düşdüyü hal yaman hey [İldırım:2004, s.149].

Mühacir şair Almas İldırım folklor yaradıcılığından istifadə etməklə "dövlət quşu", "taleh quşu" obrazlı ifadələri işlətmişdir.

Duymadım, ucdu getdi o məndən çox uzağa,
Taleh quşum başından enib düşdü tuzağa. [İldırım:2004, s.14].
Kimsə bilməz Tanrıdağın yaşını,
Duman almış Altayların başını.
Uçurmuşdur başdan dövlət quşunu... [İldırım:2004, s.149].

Ümumiyyətlə, hər iki ifadə müsbət mənada səadət, xoşbəxtlik rəmzi kimi işlənir. Burada isə Almas İldırımın həmin ifadələri işlədərək insanların səadətini, xoşbəxtliyini əllərindən alındığını bildirir.

Almas İldırımın, əsasən, yenə də folklordan dələn "dəli" sözünü "Xəzər" sözü ilə birlikdə işlədərək "coşqun" mənasını verən poetik ifadə yaratmışdır. Yəni Xəzər dənizi də zülmə, istismara, əsarətə dözmədiyinə görə coşur, titrəyir və s.

Söylə, sənə nədən "Dəli Xəzər" demişlər?
Kor taleyin əldən-ələ gəzər demişlər... [İldırım:2004, s.120].

Şair "Saraylar yıxılarkən" şeirində "dəmir at" obrazlı ifadəsini işlədərkən emosiya yaradan təşbeh, müqayisə yaratmışdır. Müəllif dəmir atlar dedikdə texnikanı nəzərdə tutur.

Qasırğalar, boranlar, fırtınalar içində
İllərlə dinlədik biz acıqlı harayları,
Dəmir atları çapdıq odların qucağına,
Biz yıxdıq, biz devirdik o qanlı sarayları. [İldırım:2004, s.79].

"Dəmir at" ifadəsini şair S.Rüstəm də işlətmişdir:

Bu günsə inamla sülhün yolunda,
Sürürəm irəli dəmir atımı.

Şair M.Rahim "traktor" sözü əvəzinə "polat at" ifadəsindən istifadə etmişdir:

Alnıaçıq cavanlar!
Şərəfli qəhrəmanlar!
Qoy çapsın tarlalarda,
Yenə polad atınız.

Almas İldırım "Parisə xitab" şeirində "dəmir qol" obrazlı ifadəsini işlətməklə, zülmkar, qanicənlərin mərd, yenilməz, aciz insanların taleyi ilə oynayan, əylənə bilmədiklərini təsir edir:

...Acizlərlə əylənmək, gülmək asan deyildir,
Onların dəmir qolu dik başları əyildir [İldırım:2004, s.71]. (3, 37).

Almas İldırım bu cür ifadələri tez-tez işlətmişdir. Çünki özü də sürgündə çox acınacaqlı günlər keçirmişdir. O, acınacaqlı, pis günləri "itin günü" kimi ifadədə əks etdirmişdir.

Ac çılpaq işçilər bütün gününü
Çalışır onlarçın alın təriylə
Özünə borc bilmiş itin gününü
Döyüşür həyəcan zərbələriylə [İldırım:2004, s.71].

Nümunələrdən də göründüyü kimi, ismi frazeologizmlər isim+isim, sifət+isim modeli əsasında formalaşmışdır.

ƏDƏBİYYAT

1. M.H. Hüseynzadə "Müasir Azərbaycan dili" Bakı, 1954; S.Ə.Cəfərov "Müasir Azərbaycan dili". Leksika Bakı II cild, 2007; A.M.Qurbanov "Müasir Azərbaycan ədəbi dili", Bakı, 1985; H.Ə.Həsənov "Azərbaycan dilinin frazeologiyası". Bakı, 1979; N.Rəhimzadə "Azərbaycan dilində idiomatik ifadələr" (Nam.dis.), 1967; H.A.Bayramov "Azərbaycan dili frazeologiyasının əsasları" Bakı, 1978; F.Salayeva "XX əsrin II yarısında Azərbaycan dilçiliyində frazeologiya nəzəriyyəsinin inkişafı". Bakı, 2016.

2. S.N.Murtuzayev "M.F.Axundovun komediyalarının frazeologiyası" Bakı, 1958; M.İ.Adilov "Klassik ədəbiyyatımızda dil və

üslub” Bakı, 1991; S.H.Mehdiyeva “A.Bakıxanovun dilində frazeoloji ifadələr” (Az. SSR. EA-nın xəbərləri). Bakı, 1987; M.Məmmədov “Nəriman Nərimanovun publisistik üslubu”. Bakı, 1985; Q.S.Kazımov “Azərbaycan dili frazeologiyasının ən dərin qatı” Seçilmiş əsərləri I cild. Bakı, 2008; N.F.Seyidəliyev “Azərbaycan dastan və nağıl dilinin frazeologiyası” Bakı, 2023, Ömər Faiq Nemanzadənin publisistikasının frazeologiyasına dair. // Ömər Faiq Nemanzadə və ana dilimiz. Bakı, 2023.

3. Almas İldırım. Seçilmiş əsərləri. Bakı, 2004.

ФРАЗЕОЛОГИЧЕСКИЕ ЕДИНИЦЫ, ИСПОЛЬЗУЕМЫЕ В ПОЭЗИИ АЛМАСА ИЛЬДЫРЫМА

РЕЗЮМЕ

В статье говорится о фразеологизмах, используемых в поэзии поэта-эмигранта Алмаса Ильдырыма. Здесь ключевую роль играет преимущественно именной фразеологизм.

В статье также даются краткие сведения о фразеологии и упоминаются имена нескольких фразеологов и лингвистов, занимающихся этой областью азербайджанского языкознания. По сравнению с глагольными фразеологизмами именные фразеологизмы в нашем языкознании не привлекались к исследованию. В связи с этим мы прилагаем краткую информацию об именных фразеологизмах.

Ключевые слова: *азербайджанский язык, Алмас Ильдырым, поэзия, фразеология, субстантивные фразеологические единицы*.

PHRASEOLOGICAL UNITS USED IN THE POETRY OF ALMAS YILDIRYM

SUMMARY

The article deals with the phraseological units in the poetry of Almas Yildirym, the emigrant poet. There especially nominative phraseologisms are playing a key role.

The article also provides brief information on phraseology and cites the names of several phraseologists and linguists working in this area of Azerbaijani linguistics. Nominative phraseological units have been studied much less frequently in Azerbaijani linguistics than verbal phraseology. Therefore, we have provided brief information about nominative phraseological units.

Keywords: *Azerbaijani language, Almas Yildirym, poetry, phraseology, nominative phraseological units.*